# Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 145 (1273) 6 avqust - 8 avqust 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ



# Türk dünyasının qədim Şəkisi

(əvvəli ötən sayımızda)

### *Türk dünyasının mədəniyyət paytaxtında bir-birindən maraqlı tədbirlər*

**Məlumdur ki, Şəki 2016-cı ildə Türk dünyasının mədəniyyət paytaxtı elan olunmuşdur. Aprelin 28-də Şəki şəhərindəki ”Yuxarı Baş” Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisində, XVIII əsrə aid ölkə əhəmiyyətli tarixi abidə olan ”Qala divarları”nın içərisində ”Türk dünyasının mədəniyyət paytaxtı - Şəki 2016” ilinin təntənəli açılış mərasimi keçirilmişdir.**




Tədbirdə TÜRKSOY-un və digər beynəlxalq təşkilatların rəsmiləri, türkdilli ölkələrdən gəlmiş nümayəndə heyətləri, Milli Məclisin deputatları, Azərbaycanda fəaliyyət göstərən səfirliklərin təmsilçiləri, görkəmli elm və incəsənət xadimləri, şəhər ictimaiyyətinin nümayəndələri və digər qonaqlar iştirak etmişdilər.

”Paytaxt ili”nin təntənəli açılış mərasiminin proqramı maraqlı və rəngarəng tədbirlərlə zəngin olmuşdur. Mərasim iştirakçıları əvvəlcə Azərbaycan memarlığının nadir incilərindən olan Şəki xanlarının sarayının qarşısındakı meydançada xalqımızın qədim milli atüstü oyunlarından olan çövkən yarışlarını izləmiş, sarayın həyətində xanlıqlar dövrünü xatırladan bədii proqrama tamaşa ediblər.

Tədbir iştirakçıları daha sonra qoruğun ərazisindəki Dairəvi Məbədin həyətində təşkil edilən Şərq bazarını gəzmiş, el sənətkarlarının əl işlərindən ibarət sərgilərlə tanış olmuş, folklor və musiqi kollektivlərinin çıxışlarını dinləmiş, Şəki mətbəxinin ləziz təamlarına qonaq edilmişlər. Sonra onlar şəhərdəki qədim karvansarayın həyətində Şəki sənətkarlarının istehsal etdiyi sənət nümunələrinin satış-sərgisi ilə tanış olmuşlar. Türk dünyasının mədəniyyət paytaxtı - ”Şəki-2016” ilinin açılış mərasimi dostluq və qardaşlığın təntənəsinə çevrilmişdir.

Hər ilin yayında Şəkidə keçirilən və artıq ənənə şəklini alan ”İpək Yolu” Beynəlxalq Musiqi Festivalı Şəki musiqisevərlərinin yaddaşında gözəl bir xatirə kimi qalıb. Dünya musiqi sənətinin parlaq incilərindən ibarət müxtəlif konsert proqramları, gözəl ifaçıların qatıldığı festival həmişə xoş bayram ovqatı bəxş edib. ”İpək yolu” Beynəlxalq Musiqi Festivalının məhz Şəkidə keçirilməsi bu şəhərin mədəni həyatında böyük bir hadisədir. Bu il 7-ci dəfə keçirilən festivalda dünyanın tanınmış musiqi kolllektivləri iştirak etdi, şəhərin sakinləri və qonaqları yenə də gözəl bir musiqi bayramının şahidi oldu.

İyunun 27-də başlanan və beş gün davam edən bu möhtəşəm musiqi bayramının iştirakçıları, şəhərin qonaqları musiqisevərlər Yaponiya, Türkiyə, İran, Özbəkistan, Moldova, Tatarıstan, Başqırdıstan, Monqolustan, Qırğızıstan, Qazaxıstan və digər ölkələrdən gələn ifaçıların, eləcə də Azərbaycanın musiqi, rəqs və folklor kollektivlərinin bir-birindən maraqlı konsert proqramlarını izləmişlər.

Şübhəsiz ki, Şəki ”İpək yolu” VII Beynəlxalq Musiqi Festivalının yüksək səviyyədə qeyd olunması xalqımızın zəngin mədəniyyətinin, Şəkinin turizm potensialının təbliği baxımından mühüm əhəmiyyətə malikdir.

**“... Həm iqtisadi sahədəki işlər, regionların inkişafı, iş yerlərinin açılması, abadlıq-quruculuq tədbirləri, həm də idman obyektlərinin, kənd yollarının açılışı, tikintisi ölkəmizin dinamik inkişafını göstərir. Gələcək illərdə bu inkişaf daha da sürətli olmalıdır. Əvvəlki illərdə görülən işlər deməyə əsas verir ki, artıq biz böyük uğurlara nail ola bilmişik”.**

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev***

### *Şəkidə ilin birinci yarısı - konkret nəticələr*

2016-cı ilin I yarısında rayonun sosial-iqtisadi inkişafının yekunları ilə tanış olmaq üçün konkret faktlara nəzər salmaq kifayətdir.

2016-cı ilin I yarısında ilkin hesablamalara görə, faktiki qiymətlərlə 169 milyon 380 min manatlıq məhsul buraxılmışdır ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 100,3 faiz təşkil edir. Buraxılmış məhsulun 6 faizi dövlət, 94 faizi isə qeyri-dövlət mülkiyyətinin payına düşür. Adambaşına faktiki qiymətlərlə 923 manatlıq məhsul buraxılmışdır. Rayon üzrə orta aylıq əmək haqqı 256 manat olmuşdur, bu da əvvəlki dövrlə müqayisədə 1 faiz çoxdur. 2016-cı ilin I yarısında Şəki rayonunda 1037 yeni iş yeri açılmışdır ki, onların da hamısı daimi iş yerləridir. 01 oktyabr 2013-cü il tarixdən 01 iyul 2016-cı il tarixədək rayonda cəmi 16893 yeni iş yeri açılmışdır ki, bunun da 94,7 faizi yeni iş yerləridir. 2016-cı ilin I yarısında Şəki rayonunda əmtəə dövriyyəsinin ümumi həcmi 185 milyon 117 min manat olmuşdur. Əvvəlki ilin müvafiq dövrünə nisbətən əmtəə dövriyyəsinin həcmi 100,2 faiz olmuş, yəni 2,1 faiz artmışdır. Hazırda rayonda 18 sənaye müəssisəsi fəaliyyət göstərir ki, bunların da 11-i kiçik müəssisədir.

### *Prezident qayğısına minnətdarlıq*

**Şəkililər ölkə rəhbərinin əhalinin sosial müdafiəsi sahəsində yeritdiyi siyasəti yüksək qiymətləndirir, aztəminatlı əhali qrupuna göstərdiyi böyük diqqət və qayğının təzahürü kimi qəbul edir. Nazirlər Kabinetinin iyul ayının 10-da keçirilən geniş iclasında çıxış edən Prezident demişdir: ”Sosial problemlərin həlli istiqamətində çox ciddi addımlar atılmışdır. Ümumiyyətlə, 2016-cı ilin ötən dövründə bəzi ölkələrdə maaşlar, pensiyalar ixtisar edilib. Ancaq Azərbaycanda maaşlar və pensiyalar 10 faiz qaldırılıb və bu da çox ciddi sosial təşəbbüsdür”.**

**(ardı gələn sayımızda)**

***Məzahir ƏHMƏDZADƏ***